# Qlobal əməkdaşlıqda yeni imkanlar

*Balkan regionunda yerləşən Şimali Makedoniya zəngin tarixi, mədəni irsi ilə seçilir. 1991-ci ildə Yuqoslaviyanın dağılmasından sonra ölkə müstəqilliyini elan etmiş və həmin vaxtdan etibarən 2019-cu ilin fevral ayınadək rəsmi olaraq Makedoniya Respublikası adlandırılmışdır. Lakin xüsusilə Yunanıstanla olan uzunmüddətli mübahisələr səbəbindən, ölkə beynəlxalq aləmdə keçmiş Yuqoslaviya Respublikası Makedoniya (FYROM) adı ilə tanınmışdır.*

Makedoniya 8 aprel 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatına üzv seçilmişdir. Bununla belə, Yunanıstan Makedoniya adının qədim yunan tarixi irsi ilə bağlı olduğunu iddia edərək ölkənin bu adla rəsmi tanınmasına qarşı çıxmışdır. Nəticədə, BMT və bir çox beynəlxalq təşkilatlar Makedoniyanı keçmiş Yuqoslaviya Respublikası Makedoniya adı ilə qeyd etməyə başlamışdır. Bu mübahisəyə son qoymaq və regionda siyasi sabitliyi təmin etmək məqsədilə 2018-ci ilin iyun ayında Yunanıstan və Makedoniya arasında Prespa müqaviləsi imzalanmışdır. Müqaviləyə əsasən, hər iki tərəfin razılığı ilə ölkə Şimali Makedoniya Respublikası adlandırılmışdır.

Adının dəyişməsi Şimali Makedoniyanın beynəlxalq mövqeyini möhkəmləndirmiş, NATO və Avropa İttifaqına inteqrasiya prosesində irəliləyişlər əldə etmək imkanı vermişdir. Bu tarixi dəyişiklik həm də Balkan regionunda diplomatik münasibətlərin normallaşmasına və sabitliyin güclənməsinə xidmət etmişdir.

Azərbaycan və Şimali Makedoniya arasında diplomatik münasibətlər 1990-cı illərin ortalarından etibarən formalaşmışdır. 25 iyun 1995-ci il tarixində Şimali Makedoniya Azərbaycan Respublikasının müstəqilliyini tanımış, üç gün sonra iki ölkə arasında rəsmi diplomatik əlaqələr qurulmuşdur. Bu hadisə hər iki ölkənin beynəlxalq arenada mövqeyinin güclənməsinə və Cənubi Qafqazla Balkan regionları arasında əməkdaşlıq üçün yeni imkanların açılmasına töhfə vermişdir.

Azərbaycan və Şimali Makedoniya arasında diplomatik münasibətlər qarşılıqlı maraqlara əsaslanır. Azərbaycan Cənubi Qafqazda strateji əhəmiyyətə, Şimali Makedoniya isə Balkan regionunda mühüm geosiyasi mövqeyə malikdir. Hər iki dövlət BMT, ATƏT və beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edir, bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. İllər ərzində tərəflər arasında siyasi dialoq möhkəmlənib. Eyni zamanda Şimali Makedoniya Azərbaycanın Qoşulmama Hərəkatındakı aktiv fəaliyyətini diqqətlə izləyir və ölkəmizin qlobal platformalarda irəli sürdüyü təşəbbüslərə maraq göstərir.

Ölkə başçılarının qarşılıqlı səfərləri də diqqət çəkir. Belə ki, Şimali Makedoniyanın sabiq Prezidenti Qeorqe İvanov 2015, 2016, 2017 və 2018-ci illərdə Azərbaycana işgüzar səfərlər edib. Bu səfərlər çərçivəsində iki ölkə arasında iqtisadi, ticari və enerji sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Həmçinin Azərbaycan və Şimali Makedoniya arasında mədəni və akademik əlaqələrin inkişafına dair müxtəlif təşəbbüslər irəli sürülüb.

Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin noyabrında Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkova ilə görüşüb. Görüş zamanı qarşılıqlı əməkdaşlığın müxtəlif aspektləri müzakirə edilib. Prezident Qordana Silyanovska-Davkova yüksək səviyyədə təşkil edilən COP29-un açılış mərasimində Azərbaycan mədəniyyətinə dair maraqlı təqdimatın keçirildiyini bildirib, mədəni diplomatiyanın əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev görüşdə COP29 çərçivəsində Azərbaycana qarşı aparılan ədalətsiz təbliğata toxunaraq ölkəmizin beynəlxalq səviyyədə iqlim dəyişmələri ilə bağlı mühüm təşəbbüslər irəli sürdüyünü və bu sahədə aktiv rol oynadığını diqqətə çatdırıb.

Görüşdə iki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin inkişafı, xüsusilə, sərmayələr, kənd təsərrüfatı, turizm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub. Prezident İlham Əliyev Azərbaycanın Balkan ölkələri, o cümlədən Şimali Makedoniya ilə iqtisadi əlaqələrin inkişafına önəm verdiyini bildirib. Prezidentlər qarşılıqlı səfərlərin iki ölkə arasında əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə ümidvar olduqlarını qeyd ediblər. Prezident İlham Əliyev Şimali Makedoniya Prezidentini Azərbaycana rəsmi səfərə dəvət edib, Qordana Silyanovska-Davkova da öz növbəsində dövlət başçımızı Şimali Makedoniyaya dəvət edib. Hər iki lider dəvətləri minnətdarlıqla qəbul ediblər.

Martın 10-da ölkəmizə səfərə gələn Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın rəsmi qarşılanma mərasimi olub, daha sonra martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova mətbuata bəyanatlarla çıxış ediblər.

Ölkə başçımız bildirib: "Biz ikitərəfli münasibətlərimizin inkişafı üçün fəal iş aparırıq. Şadam ki, ölkələrimiz arasında siyasi dialoq dinamik xarakter alır. Bizim xanım Prezidentlə ikinci görüşümüz qısa müddət ərzində bunun əyani sübutudur. Siyasi əlaqələrimizin inkişafı üçün əlavə tədbirlər görülməlidir, müvafiq dövlət qurumları təbii olaraq sıx təmasda olmalıdırlar. Eyni zamanda, iqtisadi sahədə, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılmalıdır. Əfsuslar olsun ki, bu günə qədər ticari-iqtisadi sahədə o qədər böyük nəticələr əldə edilməyib. Ancaq ümid edirəm ki, Sizin rəsmi səfərinizdən və nümayəndə heyətlərinin təmaslarından sonra biz bu boşluğu da dolduracağıq".

İki ölkə iqtisadi sahədə əməkdaşlıq üçün potensiala malikdir. Azərbaycanın enerji resursları və nəqliyyat-logistika imkanları Makedoniya üçün əhəmiyyətli perspektivlər açır. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır və gələcəkdə bu sahədə əməkdaşlığın genişlənməsi mümkündür.

Şimali Makedoniya İqtisadiyyat Nazirliyinin dövlət katibi Razmena Çekiç-Durovik 2023-cü ilin əvvəlində verdiyi açıqlamada, Şimali Makedoniya-Yunanıstan qaz interkonnektoru layihəsinin artıq ətraf mühitə təsirinin qiymətləndirildiyini və bütün lazımi prosedurların tamamlandığını bildirib. Onun sözlərinə görə, Ətraf Mühit və Ərazi Planlaşdırılması Nazirliyi layihəyə dair müsbət qərar verib, həmçinin təməl layihə hazırlanaraq işlənib.

2022-ci ilin sentyabr ayında da layihə çərçivəsində Yunanıstan tərəfi bazar testlərini uğurla tamamlayıb və yekun investisiya qərarının elan edilməsinə yaxınlaşıb. Bu interkonnektor Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycan qazının Avropaya nəqlini genişləndirmək üçün mühüm əhəmiyyət daşıyır. Layihənin reallaşdırılması ilə Şimali Makedoniya Azərbaycanın təbii qaz ehtiyatlarına birbaşa çıxış və enerji resurslarının idxal mənbələrini diversifikasiya edəcək və regionda qaz təchizatının dayanıqlılığı artacaq. İnterkonnektorun tikintisi Şimali Makedoniyanın enerji təhlükəsizliyi baxımından əhəmiyyətli bir addım, həm də Azərbaycanın Avropaya qaz ixracının genişlənməsinə töhfədir. Layihənin uğurla icrası Cənub-Şərqi Avropanın enerji xəritəsində yeni strateji dəyişmələrə səbəb ola bilər. Həmçinin layihənin bu il tamamlanması və ölkənin Azərbaycan qazına çıxış əldə etməsi nəzərdə tutulub.

Razmena Çekiç-Durovik layihənin həyata keçirilməsində mühüm addımların atıldığını bildirib. Onun sözlərinə görə, 2023-cü ilin sonuna qədər interkonnektorun tikintisini həyata keçirəcək podratçılar seçilmişdir. Layihənin tam gücü ilə fəaliyyətə başlaması üçün TAP (Trans-Adriatik Boru Kəməri), maye təbii qaz (LNG) terminalları və digər mənbələrdən qaz tədarükünün diversifikasiyası nəzərdə tutulur. Bu qaz interkonnektoru Şimali Makedoniyanın enerji təchizatında Rusiyadan asılılığı azaltmaqla yanaşı, ölkənin Cənub Qaz Dəhlizinə qoşulmasını təmin edəcək. Layihənin həyata keçirilməsi nəticəsində Azərbaycan qazı Avropaya yeni istiqamətdə nəql ediləcək və Şimali Makedoniya üçün daha etibarlı enerji mənbəyi formalaşacaq.

Ölkəmizin həyata keçirdiyi beynəlxalq enerji və infrastruktur layihələri, xüsusilə Cənub Qaz Dəhlizi Balkan regionu üçün də mühüm əhəmiyyət daşıyır. Şimali Makedoniya Azərbaycanın enerji sektorundakı təcrübəsindən yararlanmaqda maraqlıdır. Bununla yanaşı, kənd təsərrüfatı, informasiya texnologiyaları və alternativ enerji sahələrində də əməkdaşlıq perspektivləri mövcuddur.

Azərbaycan və Şimali Makedoniya arasında münasibətlərin digər vacib aspektlərindən biri də mədəni və humanitar sahədə əməkdaşlıqdır. Hər iki xalqın zəngin tarixi və mədəni irsi əlaqələri daha da gücləndirir. Təhsil sahəsində əməkdaşlıq çərçivəsində azərbaycanlı tələbələrin Şimali Makedoniyada təhsil alma imkanlarının genişləndirilməsi və akademik mübadilələrin təşviq edilməsi müzakirə olunur. Azərbaycan Şimali Makedoniya vətəndaşları üçün cəlbedici turizm məkanıdır və Makedoniyanın tarixi və təbii gözəllikləri azərbaycanlı turistlər üçün maraq kəsb edir.

Azərbaycan və Şimali Makedoniya arasında diplomatik münasibətlər dostluq və əməkdaşlıq üçün yeni perspektivlər açıb. Gələcəkdə siyasi, iqtisadi və mədəni əlaqələrin daha da möhkəmlənməsi üçün birgə layihələrin həyata keçirilməsi vacibdir. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və iqtisadi-ticari əlaqələri gücləndirərək qarşılıqlı faydalı tərəfdaşlıq formatı yarada bilər.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**